

***Uşağınızın immuniteti necədir?***

*Sizin diqqətinizə kiçik bir test təklif edirik. Bu test sizə uşağınızın immunitetini müəyyən etməyə kömək edəcək.*

*Bunun üçün sadəcə 4 suala cavab verin:*

*1. Bir il ərzində uşaq neçə dəfə soyuqdəymə ilə xəstələnir?*

*2. Soyuqdəymənin müddəti nə qədər olur?*

*3. Sizin uşağınızda xroniki və ya təkrarlanan yoluxucu xəstəliklər (qaymorit, otit, furunkulyoz, pnevmoniya, bağırsaq infeksiyaları) varmı?*

*4. Uşaqda bədənin daimi temperaturu nə qədərdir?*

*İndi aşağıda göstərilənlərə uyğun uşağın immunitetini müəyyən edəcəksiniz:*

***Yaxşı immunitet***

*uşaqda soyuqdəymə il ərzində 4 dəfədən çox olmur*

*soyuqdəymə xəstəliyinin müddəti – ən çoxu 14 gün*

*xroniki və ya təkrarlanan xəstəliyi yoxdur*

*temperatur əsasən təxminən 36,6 dərəcə olur.*

***İmmunitet elə də yaxşı deyil***

*uşaqda soyuqdəymə xəstəliyi ildə 4 dəfədən çox olur*

*soyuqdəymə xəstəliyinin orta uzunluğu 14 gündən çox olur*

*soyuqdəymə xroniki xarakterlidir və ya tez-tez təkrarlanan yoluxucu xəstəliklər yaşayır*

*daimi hadisə kimi yüksək temperatur*